QANUN № 06 (380), 2026, s. 213-220

Əliyev Əlibaba Ərzuman oğlu,
Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının II kurs magistrantı
E-mail: lawyeralibaba.a@gmail.com

UOT 347.4
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0188

ƏSASSIZ VARLANMA VƏ ÖZGƏ İŞLƏRİNİ TAPŞIRIQSIZ APARMA İNSTİTUTLARININ QARŞILIQLI ƏLAQƏSİ VƏ FƏRQİ: MÜQAYİSƏLİ-HÜQUQİ TƏHLİL

Açar sözlər: *əsassız varlanma, kondiksiya öhdəliyi, özgə işlərini tapşırıqsız aparma, kvazi-kontrakt, subsidiarlıq, müdaxilə yolu ilə varlanma, qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparma.*

Ключевые слова: *неосновательное обогащение, кондикционное обязательство, ведение чужих дел без поручения, квазиконтракт, субсидиарность, обогащение вследствие вмешательства, неподлинное ведение дел.*

Keywords: *unjust enrichment, condictio obligation, negotiorum gestio, quasi-contract, subsidiarity, enrichment by interference, spurious agency.*

Giriş

Mülki hüququn öhdəlik sistemində müqavilə və deliktlərlə yanaşı xüsusi öhdəlik qrupu da mövcuddur. Həmin öhdəlik qrupuna qanunun birbaşa göstərişi əsasında müəyyən hüquqi faktların məcmusundan yaranan öhdəliklər aiddir. Bu qrupun iki klassik nümayəndəsi özgə işlərini tapşırıqsız aparma (negotiorum gestio) və əsassız varlanmadır (condictio). Azərbaycan Respublikasının Mülki Məcəlləsi hər iki institutu müqavilədənkənar öhdəliklərə həsr olunmuş bölmədə tənzimləyir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsində bu iki institut ardıcıl olaraq 1087–1090-cu maddələrdə (özgə işlərini tapşırıqsız aparma) və 1091–1095-ci maddələrdə (əsassız varlanma) tənzimlənmişdir [1]. Bu yerləşmə təsadüfi deyildir. Çünki hər iki institutun kökləri Roma hüququndakı "sanki müqavilədən" (quasi ex contractu) yaranan öhdəliklərə gedib çıxır və onlar ümumi restitusion-bərpaedici funksiya daşıyır.

Lakin bu yaxınlıq ciddi nəzəri və praktiki problem doğurur. İki institutun faktiki tərkibləri qismən üst-üstə düşdüyündən, eyni mülki dövriyyə halları həm özgə işlərini tapşırıqsız aparma, həm də əsassız varlanma müstəvisində qiymətləndirilə bilər. Hansı institutun seçilməsi sırf təsnifat məsələsi deyil, həm də bilavasitə tələbin həcminə (xərclərin əvəzinin ödənilməsi, yoxsa varlanma həddi), iddia müddətinə və sübutetmə yükünə təsir göstərir.

Məqalənin məqsədi əsassız varlanma və özgə işlərini tapşırıqsız aparma institutlarının qarşılıqlı əlaqəsini, sərhədlərini və fərqlərini müqayisəli-hüquqi kontekstdə araşdırmaq, habelə nəzəri nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin son təcrübəsi əsasında qiymətləndirməkdir. Tədqiqat tarixi-hüquqi, müqayisəli-hüquqi (alman, fransız, İsveçrə, türk və rus hüququ) və doqmatik metodlara əsaslanır.

Əsas elmi fərziyyə bundan ibarətdir ki, həqiqi özgə işlərini tapşırıqsız aparma əsassız varlanma ilə rəqabətdə deyil. Belə ki, əsassız varlanma yalnız qalıq, subsidiar müdafiə vasitəsi kimi və qanunvericinin xüsusi keçid normaları vasitəsilə tətbiq olunur.

1. Ortaq köklər və müqayisəli-hüquqi modellər

İki institutun ortaq kökü Roma hüququnun öhdəlik təsnifatındadır. Klassik dövrdə öhdəliklər müqavilədən (ex contractu) və hüquq pozuntusundan (ex delicto) yaranırdı. Yustinian kompilyasiyalarında bu təsnifat "sanki müqavilədən" (quasi ex contractu) və "sanki hüquq pozuntusundan" yaranan öhdəliklərlə genişləndirildi. Özgə işlərini tapşırıqsız aparma və ayrı-ayrı kondiksiyalar (condictio indebiti, condictio causa data causa non secuta, condictio sine causa və s.) məhz "quasi ex contractu" kateqoriyasına daxil edildi. Yəni tərəflər arasında razılaşma mövcud olmasa belə, bu kateqoriyaya aid münasibətlər ədalət (aequitas) mülahizələri əsasında öhdəlik yaradırdı [13, s. 14-28]. Ümumən qeyd edilməlidir ki, Roma hüququnda əsassız varlanma vahid institut kimi deyil, ayrı-ayrı kondiksiyalar sistemi şəklində formalaşmışdır [8; 13, s. 834-857].

Bu ayrı-ayrı iddiaların vahid institutlar halında ümumiləşdirilməsi orta əsr qlossatorları, sonra isə təbii hüquq məktəbi vasitəsilə baş verdi. Fransız Mülki Məcəlləsi (1804) özgə işlərini tapşırıqsız aparma (gestion d'affaires) və borc olmadan ödəmənin geri alınmasını (paiement de l'indu) "kvazikontraktlar" başlığı altında birləşdirsə də, ümumi əsassız varlanma iddiası yalnız 1892-ci il Boudier qərarı ilə məhkəmə təcrübəsində tanındı. 2016-cı il Fransa mülki hüquq islahatı isə bu institutu açıq kodifikasiya edərək onun subsidiar xarakterini qanun səviyyəsində təsbit etdi [12].

Ən effektiv modellərdən biri kimi Alman Mülki Qanunnaməsini (BGB) qeyd etmək olar. Həmin Qanunnamədə özgə işlərini tapşırıqsız aparma §§ 677–687-də, əsassız varlanma isə §§ 812–822-də tənzimlənir [9]. Alman doktrinasının (Wilburq, fon Kemmerer) həlledici töhfəsi kondiksiyanın iki tipə bölünməsidir. Həmin iki tipə icra yolu ilə varlanma (Leistungskondiktion) (bir şəxsin digərinin xeyrinə şüurlu və məqsədyönlü şəkildə həyata keçirdiyi icranın hüquqi əsası olmadıqda) və müdaxilə yolu ilə varlanma (Eingriffskondiktion) (varlanma başqasının hüquq sferasına icazəsiz müdaxilə nəticəsində baş verdikdə) aid edilir [10; 11]. Bu ayrım ona görə həlledicidir ki, məhz Eingriffskondiktion özgə işlərini tapşırıqsız aparma ilə kəsişir. BGB-nin § 684-ü isə iş sahibkarın iradəsinə uyğun olmadıqda onun yalnız əsassız varlanma normaları üzrə cavabdehliyini nəzərdə tutmaqla iki institut arasında birbaşa körpü qurur [9].

Azərbaycan hüququ üçün ən yaxın müqayisələrdən biri də türk hüququdur. Çünki həm Türkiyə Öhdəliklər Qanunu (TBK), həm də Azərbaycan Mülki Məcəlləsi öhdəlik ənənəsini eyni alman-İsveçrə pandekt mənbəyindən götürmüşdür. Türk doktrinası (Eren, Özkan və b.) həqiqi özgə işlərini tapşırıqsız aparmanın əsassız varlanmanı sıxışdırdığını, qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparmanın (TBK m. 530) isə müdaxilə yolu ilə varlanma ilə yaxından bağlı olduğunu göstərir [3; 4; 5].

Rus hüququ isə məsələyə fərqli mövqedən baxır. Belə ki, Rusiya Federasiyası Mülki Məcəlləsinin 1103-cü maddəsi kondiksiya normalarının digər tələblərə (restitusiyaya, vindikasiyaya, müqavilə və delikt) subsidiar tətbiqini birbaşa təsbit edir [6]. Bu əsasda N. Q. Solomina kondiksiyanın universallığı konsepsiyasını işləyib hazırlamış və onu ayrıca öhdəlik növü deyil, hüquqların müdafiəsinin tamamlayıcı üsulu kimi səciyyələndirmişdir [8].

2. Azərbaycan Mülki Məcəlləsində tənzimlənmə

1999-cu il Mülki Məcəlləsi öhdəlik hüququ sahəsində əsasən alman-pandekt modelini qə-

bul etmişdir. Özgə işlərini tapşırıqsız aparma (1087.1) o haldır ki, bir şəxs (icraçı) tapşırıq və ya başqa əsas olmadan özgə (sahibkarın) işini onun mənafeyinə və ehtimal olunan iradəsinə uyğun aparır. İnstitutun dörd zəruri ünsürü vardır ki, onlara özgə işinin olması, tapşırıqsızlıq, özgə işini aparmaq iradəsi (animus aliena negotia gerendi) və vicdanlılıq aid edilir. Bu ünsürlərdən "animus" xüsusi əhəmiyyət daşıyır. Çünki məhz "animus" həqiqi və qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparmanı bir-birindən ayırır [5]. Sahibkar işin aparılmasını sonradan bəyənərsə, münasibətə tapşırıq haqqında qaydalar tətbiq olunur (1087.2; BGB § 684/II Genehmigunga uyğun) ki, bu da institutun "sanki müqavilə" təbiətini əyani şəkildə göstərir.

İcraçının məsuliyyəti ilə bağlı qeyd edilməlidir ki, bu məsələ diferensiallaşdırılmış qaydada tənzimlənmişdir. Ümumi qayda ondan ibarətdir ki, icraçı təqsirinə görə cavabdehlik daşıyır (1089.1). İcraçı təcili təhlükənin qarşısını alarkən yalnız qəsd və kobud ehtiyatsızlığa görə (1089.2), işi sahibkarın aşkar iradəsinə zidd apardıqda isə təqsiri olmasa belə cavabdeh ola bilər (1089.3). İcraçının əsas hüququ çəkdiyi xərclərin əvəzini almaqdır. Belə ki, iş sahibkarın mənafeyinə uyğun aparılıbsa, o, bütün zəruri xərcləri tələb edə bilər (hətta gözlənilən nəticə əldə olunmasa belə) (1090.1). Çünki burada utiliter coeptum, yəni işin obyektiv faydalı başlanması meyarı tətbiq edilir. Lakin iş sahibkarın mənafeyinə uyğun deyilsə, icraçının tələbi sahibkarın varlandığı həddə endirilir (1090.2). Bu isə aşağıda təhlil edilən mərkəzi keçid normasıdır.

Əsassız varlanma 1091.1-ci maddədə belə müəyyən edilir ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə edən şəxs onu qaytarmağa borcludur. Doktrinada bu, kondiksiya öhdəliyi adlanan mühafizəedici, qeyri-müqavilə öhdəliyidir [8]. İnstitutun iki konstitutiv şərti vardır ki, onlara bir şəxsin digərinin hesabına varlanması və bu varlanma üçün qanuni, digər hüquqi və ya müqavilə əsasının olmaması aiddir (1091.2). Əsas cəhət budur ki, əsassız varlanma nə tərəflərin iradəsini, nə də təqsirini tələb etmir. Bu hal hətta tərəflərin xəbəri olmadan da yarana bilər. Varlanma həm əmlakın əldə edilməsini (приобретение), həm də qənaət edilməsini (сбережение – normal halda azalmalı olan əmlakın azalmaması) əhatə edir [8].

Qaytarmanın həcmi 1092-ci maddədə tənzimlənir. Həmin maddəyə əsasən varlanmış şəxs əldə etdiyini, ondan əldə etdiyi faydanı və natura şəklində qaytarıla bilmədikdə dəyərini qaytarmalıdır (1092.1, 1092.2). Lakin Məcəllə vicdanlı varlanmış şəxsi qoruyur. Belə ki, o, aldığı əmlakın artıq onda olmadığını və bununla daha varlı olmadığını sübut edərsə, qaytarma bu həddə azaldılır (1092.3). Lakin bu müdafiə vicdansız şəxsə şamil edilmir. Məcəllə həmçinin məqsədi baş tutmayan icranın geri tələbini (1093 - condictio causa data causa non secuta-nın müasir variantı) və əsassız varlanma tələbləri üçün xüsusi, iki illik qısaldılmış iddia müddətini (1095) nəzərdə tutur. Tələbin qanuni əsasının düzgün müəyyənləşdirilməsi metodologiyası, yəni hansı normanın dispozisiya şərtlərinin işin faktiki hallarına uyğun gəldiyinin ardıcıl yoxlanması Azərbaycan hüququ üçün ətraflı işlənmişdir [2, s. 99-119].

3. Qarşılıqlı əlaqə: sıxışdırma, subsidiarlıq və keçid normaları

İndi mərkəzi suala keçmək olar ki, əgər konkret vəziyyət eyni zamanda hər iki institutun əlamətlərini daşıyırsa, hansı tətbiq olunmalıdır? Müqayisəli doktrinada üstün mövqe budur ki, həqiqi özgə işlərini tapşırıqsız aparma əsassız varlanma ilə rəqabət etmir, əvəzində onu sıxışdırır. Səbəbi odur ki, həqiqi özgə işlərini tapşırıqsız aparma tərəflər arasında qanunla müəyyən edilmiş, qarşılıqlı hüquq və vəzifələrlə (diqqət (özən) borcu və hesabatvermə öhdəliyi ilə) müşayiət olunan tam hüquqi münasibət yaradır. Bu baxımdan belə xüsusi rejim mövcud olduqda,

daha ümumi və "kasad" əsassız varlanma normalarına müraciətə ehtiyac qalmır [5; 4].

Bu yanaşma əsassız varlanmanın subsidiar (qalıq) təbiəti ilə üst-üstə düşür. Sovet-rus doktrinasında bu, "iddiaların rəqabəti" problemi kimi müzakirə edilmişdir. O. S. İoffeyə görə rəqabət yolverilməzdir, çünki qanunda nəzərdə tutulmuş əsaslardan birinin mövcudluğu digərlərini istisna edir [7]. Solomina isə kondiksiyanın universallığını əsaslandıraraq onun subsidiar tətbiqi üçün zəruri şərtin başqa hər hansı iddianın şərtlərinin olmaması olduğunu göstərmişdir [8]. Beləliklə, əsassız varlanma hüquq sistemində son sığınacaq (ultima ratio) rolunu oynayır. Azərbaycan hüququ Rusiya Federasiyası Mülki Məcəlləsinin 1103-cü maddəsinə bənzər açıq normaya malik olmasa da, bu subsidiarlıq doktrina, iddia metodu [2, s. 99-119] və məhkəmə təcrübəsi ilə təmin olunur.

Bununla belə, iki institut bir-birindən təcrid olunmuş deyildir. Qanunverici onları birləşdirən bir neçə keçid (körpü) norması nəzərdə tutmuşdur. Bu keçid normaları arasında ən mühümü Mülki Məcəllənin 1090.2-ci maddəsidir. Belə ki, həmin maddənin dispozisiya şərtlərinə əsasən tapşırıqsız iş sahibkarın mənafeyinə uyğun aparılmadıqda, icraçının tam xərc tələbi varlanma həddinə endirilir (BGB § 684 və TBK m. 530 ilə eyni məntiq). İkinci körpü isə 1089.4-cü maddədir. Həmin maddəyə əsasən fəaliyyət qabiliyyəti olmayan icraçının məsuliyyəti delikt və əsassız varlanma normalarına yönləndirilir. Üçüncü körpü isə 680.2-ci maddədir ki, həmin maddəyə əsasən kirayə münasibətlərində əşyanın yaxşılaşdırılması ilə bağlı xərclərin əvəzi məhz özgə işlərini tapşırıqsız aparma müddəalarına istinadla tənzimlənir. Bu normalar göstərir ki, qanunverici iki institutu bir-birini istisna edən deyil, müəyyən nöqtələrdə bir-birinə keçən, tamamlayan vasitələr kimi qurmuşdur.

4. Qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparma və müdaxilə yolu ilə varlanma

İki institutun ən mürəkkəb kəsişmə sahəsi qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparmadır (şəxsin özgə işini onun mənafeyi naminə deyil, bilərəkdən öz işi kimi apardığı hal) (BGB § 687, TBK m. 530). Burada "animus aliena negotia gerendi" yoxdur. Şəxs başqasının hüquq sferasına şüurlu müdaxilə edir və mənfəət əldə edir, ona görə bu hal müdaxilə yolu ilə varlanmaya (Eingriffskondiktion) yaxın sayılır [10]. Əsas problem əldə edilmiş mənfəətin taleyidir ki, klassik əsassız varlanma yalnız varlanma həddində qaytarma tələb edir, qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparma normaları isə müdaxiləçinin əldə etdiyi bütün faydanı, hətta öz bacarığı sayəsində qazandığı artıq mənfəəti də əhatə edən mənfəətin geri alınması funksiyasını yerinə yetirir. Bu mexanizmin ağırlığını nəzərə alaraq, o, vicdanlı şəxslərə qarşı yalnız müdaxilə yolu ilə varlanma, vicdansız müdaxiləçilərə qarşı isə qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparma çərçivəsində tətbiq edilməlidir [5].

Azərbaycan Mülki Məcəlləsi qeyri-həqiqi özgə işlərini tapşırıqsız aparma üçün ayrıca norma nəzərdə tutmadığından, belə hallar əsassız varlanma (1091.1, 1092.1.1) və delikt normaları vasitəsilə həll olunur. Lakin bu, müəyyən boşluq yaradır. Belə ki, 1092.3-cü maddəyə əsasən vicdanlı varlanmış şəxsin cavabdehliyini varlanma həddi ilə məhdudlaşdırdığından, müdaxiləçinin xüsusi bacarığı hesabına qazandığı artıq mənfəətin tam geri alınması üçün açıq mexanizm yoxdur. Bu, xüsusən əqli mülkiyyət və haqsız rəqabət münasibətləri baxımından Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi üçün diqqətə layiq sahədir.

5. Azərbaycan məhkəmə təcrübəsi

Yuxarıda əsaslandırılan müddəalar (tələbin qanuni əsasının ardıcıl yoxlanması və əsassız varlanmanın subsidiar mövqeyi) Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının son illərdəki təcrübəsində mütərəqqi mövqelərlə müşahidə edilməkdədir.

Tələbin qanuni əsasının ardıcıl yoxlanması. Borc öhdəliyi ilə yüklü olan mənzilin kirayəyə verilməsindən əldə edilən gəlirlə bağlı işdə apel-

lyasiya məhkəməsi tələbi birbaşa əsassız varlanma (1091–1092) çərçivəsində yoxlamış və vəsaitin bağışlanması nəticəsinə gəlmişdir. Ali Məhkəmə qətnaməni ləğv edərək göstərdi ki, belə iddiada əvvəlcə tərəflər arasında müqavilə (və ya ona bənzər) münasibətlərin mövcudluğu araşdırılmalıdır. Mülkiyyətçinin razılığı ilə kirayəyə vermə tapşırıq müqaviləsinə, razılıq olmadan vermə özgə işlərini tapşırıqsız aparmaya, qanuni və ya müqavilə əsası olmadan istifadə isə passiv (qənaət) varlanmaya dəlalət edir. İddianın qanuni əsasları yoxlanılarkən əvvəlcə müqavilədən irəli gələn, sonra ona bənzər (özgə işlərini tapşırıqsız aparma), daha sonra isə qanundan irəli gələn (əsassız varlanma) əsaslar yoxlanılmalıdır [15]. Bu, məhz nəzəri hissədə təsvir edilən ardıcıllığın (iddia metodunun [2, s. 99-119]) əməli tətbiqidir.

Faktiki ailə münasibətində iddiaçının öz vəsaiti ilə cavabdehin adına mənzil alınması ilə bağlı işdə Ali Məhkəmə eyni metodologiyanı təkrarlamışdır. Ali Məhkəmə ifadə etmişdir ki, əvvəlcə tapşırıq müqaviləsi, üçüncü şəxsin əvəzinə icra və üçüncü şəxsin xeyrinə müqavilə kimi əsaslar, yalnız bundan sonra əsassız varlanma yoxlanılmalıdır. Məhkəmə həmçinin borcunu bilərək ödəyənin bağışlama niyyəti ilə hərəkət etdiyi prezumpsiyasını (qui sciens solvit indebitum, donandi consilio id videtur fecisse) və bunun əksini sübut etmə yükünün iddiaçının üzərinə düşdüyünü vurğulayaraq, əsassız varlanmanın üç kumulyativ şərtini (əmlak əldə etmə, məhrum olanın hesabına olması və hüquqi əsasın olmaması) ayrıca vurğulamışdır [16].

Əsassız varlanmanın tətbiqi və sübut yükü. Çoxsaylı bank köçürmələrinin borc kimi geri tələbinə dair işdə cavabdeh vəsaitin lotereya oyunu ilə bağlı olduğunu bildirmiş, məhkəmə isə 3000 manatdan yuxarı borcun yazılı formada bağlanmasını tələb edən normaya (739.2) istinadla iddiaçının borc verməsini sübut edə bilmədiyini müəyyən etmişdir. Eyni zamanda qeyd olunmuşdur ki, borc sübuta yetirilməsə də, vəsait əsassız varlanma müddəaları ilə geri qaytarıla bilərdi. Lakin işin hallarında köçürmələr bağışlama kimi qiymətləndirildiyindən iddia rədd edilmişdir [17]. Bu qərar həm sübutetmə yükünün, həm də borc/bağışlama/əsassız varlanma sərhədinin əyani nümunəsidir.

Nikah dövründə alınmış və yaxşılaşdırılmış, lakin sonradan keçmiş qaynananın adına rəsmiləşdirilmiş evlə bağlı işdə Ali Məhkəmə cavabdehin hüquqi əsas olmadan iddiaçının (və keçmiş ərin) hesabına varlandığını təsdiqləmişdir. Cavabdehin əmlakı üçüncü şəxslə bağladığı alqı-satqı ilə qanuni əldə etməsi arqumenti rədd edilmişdir. Çünki iddiaçı həmin müqavilənin tərəfi olmamış və bu müqavilə onun çəkdiyi xərclərin doğurduğu varlanmanı aradan qaldırmamışdır [18].

Notarial qaydada təsdiqlənmədiyi üçün etibarsız (337) şifahi alqı-satqı əsasında ödənilmiş beh və vicdanlı sahibin yaxşılaşdırma xərcləri ilə bağlı başqa bir işdə isə məhkəmə etibarsız əqd üzrə alınanların restitusiyasını və 157.7-ci maddə üzrə yaxşılaşdırma məsrəflərinin əvəzini əsassız varlanma məntiqi ilə təsdiqlədi. Bu isə etibarsız əqd restitusiyası ilə kondiksiya arasındakı sıx əlaqəni əyani göstərir [19]. Qeyd etmək lazımdır ki, əhəmiyyətsiz əqddən doğan əsassız varlanma tələblərinə Konstitusiya Məhkəməsi Plenumunun 2 aprel 2021-ci il tarixli qərarına əsasən 1095-ci maddədəki iki illik deyil, 354.1-ci maddədəki bir illik müddət şamil edilir [14].

Yaxşılaşdırmalar və varlanmanın ölçüsü. Özgə torpaq sahəsində uzun illər ərzində salınmış çoxillik əkmələrlə (fındıq və qoz bağı) bağlı iki işdə Ali Məhkəmə mühüm metodoloji mövqe formalaşdırmışdır. Belə ki, torpaqdan ayrıla bilməyən bitkilər əşyanın tərkib hissəsinə çevrilir (135.10) və mülkiyyətçi dəyərin artdığı həddə varlanmış sayılır. Bu səbəbdən vicdanlı sahibə ödəniləcək yaxşılaşdırma dəyəri ağacların bazar qiyməti ilə deyil, torpaq sahəsinin yaxşılaşdırma

ilə və yaxşılaşdırma olmadan dəyərləri arasındakı fərq əsasında müəyyən edilməlidir (157.7) [20; 21].

Bu qərarlar topluca onu təsdiqləyir ki, Azərbaycan məhkəmə təcrübəsi əsassız varlanmanı son çarə kimi tətbiq edir, ondan əvvəl müqavilə və müqaviləyəbənzər (o cümlədən özgə işlərini tapşırıqsız aparma) əsasları yoxlayır, yaxşılaşdırma hallarında isə varlanmanın həcmini "fərq" metodu ilə ölçür. Bu, məqalənin əsas fərziyyəsini (əsassız varlanmanın subsidiar, özgə işlərini tapşırıqsız aparmanın isə onu sıxışdıran xüsusi rejim olması tezisini) bilavasitə dəstəkləyir.

6. Sistemli fərqlər

Qarşılıqlı əlaqəyə baxmayaraq, iki institut bir sıra prinsipial əlamətə görə fərqlənir. Ən köklü fərq subyektiv ünsürdədir. Belə ki, özgə işlərini tapşırıqsız aparma icraçının özgə işini aparmaq iradəsini (animus) tələb edir, əsassız varlanma isə subyektiv ünsürə laqeyddir (iradədən və təqsirdən asılı olmayaraq yaranır). Davranışın xarakteri isə fərqliliyini onda göstərir ki, özgə işlərini tapşırıqsız aparma aktiv, məqsədyönlü idarəetmə fəaliyyətini nəzərdə tutur, əsassız varlanma isə nəticəyə (varlanma faktına) yönəlir və passiv şəkildə də baş verə bilər.

Tələbin istiqaməti ilə bağlı fərq ondadır ki, özgə işlərini tapşırıqsız aparmada əsas tələb icraçıdan sahibkara (xərc əvəzi), əsassız varlanmada isə həmişə məhrum olandan varlanmış şəxsə (əldə edilənin qaytarılması) yönəlir. Praktiki baxımdan ən mühüm fərq tələbin həcmindədir. Bu prizmadan mənafeyə uyğun özgə işlərini tapşırıqsız aparmada icraçı bütün zəruri xərcləri ala bilər (1090.1), əsassız varlanmada isə qaytarma yalnız varlanma həddi ilə məhdudlaşır və zənginləşmənin aradan qalxması müdafiəsi ilə daha da azaldıla bilər (1092.3). Nəhayət, məsuliyyət rejimi və iddia müddəti fərqlidir. Belə ki, özgə işlərini tapşırıqsız aparmada icraçının üzərinə lazımi diqqət standartı və təqsirə görə məsuliyyət düşür (1089) və ümumi iddia müddəti tətbiq olunur, əsassız varlanmada isə təqsir şərt deyil və xüsusi iki illik müddət qüvvədədir (1095). Türk doktrinasında məhz diqqət borcunun mövcudluğu həlledici fərqləndirici əlamət sayılır [5].

Vicdanlılıq hər iki institutda mərkəzi, lakin fərqli rol oynayır. Özgə işlərini tapşırıqsız aparmada o, institutun tətbiqinin ilkin ("giriş") şərtidir, əsassız varlanmada isə tələbin yaranmasına deyil, onun həcminə təsir edən "həcm tənzimləyicisi"dir (yalnız vicdanlı varlanmış şəxs 1092.3 müdafiəsindən faydalanır).

Ümumiləşdirsək, özgə işlərini tapşırıqsız aparma davranış mərkəzli, əsassız varlanma isə nəticə mərkəzli institutdur. Birincisi icraçını həm mükafatlandırır (xərclərin əvəzinin ödənilməsi), həm intizamlandırır (diqqət borcu və məsuliyyət), ikincisi neytral şəkildə pozulmuş əmlak tarazlığını bərpa edir.

Nəticə

Aparılan təhlil göstərir ki, əsassız varlanma və özgə işlərini tapşırıqsız aparma qanundan əmələ gələn, ortaq Roma-kvazikontrakt köklərinə malik, ümumi restitusion funksiya daşıyan, lakin müstəqil hüquqi konstruksiyalardır. Onların əlaqəsi rəqabət deyil, ardıcıllıq və tamamlayıcılıq əsasında qurulur. Həqiqi özgə işlərini tapşırıqsız aparma diqqət borcu ilə müşayiət olunan tam hüquqi münasibət yaratdığından əsassız varlanmanı sıxışdırır, əsassız varlanma isə yalnız qalıq, subsidiar vasitə kimi və qanunvericinin keçid normaları (1090.2, 1089.4, 680.2) vasitəsilə tətbiq olunur. İki institut subyektiv ünsür, davranışın xarakteri, tələbin istiqaməti və həcmi, diqqət borcu və iddia müddəti baxımından sistemli şəkildə fərqlənir və bu fərqlərin düzgün tətbiqi tələbin nəticəsini birbaşa müəyyən edir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, iki institutun qarşılıqlı əlaqəsi Azərbaycan qanunvericiliyi kontekstində sistemli müqayisəli təhlilə cəlb olunur, Mülki Məcəllənin 1090.2,

1089.4 və 680.2-ci maddələri keçid normaları kimi müəyyənləşdirilir, nəhayət, nəzəri nəticələr ilk dəfə Ali Məhkəmənin konkret qərarları əsasında yoxlanılaraq əsassız varlanmanın subsidiar təbiətinin məhz Azərbaycan məhkəmə təcrübəsi ilə təsdiqləndiyi əsaslandırılır. Tətbiqi baxımdan düzgün tövsif (münasibətin özgə işlərini tapşırıqsız aparma, yoxsa əsassız varlanma çərçivəsində qiymətləndirilməsi) bilavasitə kompensasiyanın həcminə və iddia müddətinə təsir göstərir. Azərbaycan hüququnun gələcək təkmilləşdirilməsi baxımından iki istiqamət xüsusi diqqətə layiqdir: 1) əsassız varlanmanın subsidiar xarakterinin açıq normativ təsbiti (RF MM-in 1103-cü maddəsinə bənzər); 2) müdaxilə yolu ilə varlanma üzrə mənfəətin geri alınması mexanizminin nəzərdən keçirilməsi.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46944.

2. Herrmann T. Mülki prosesdə tətbiq ediləcək hüququn tapılması: Azərbaycan qanunvericiliyi: kazusların köməyi ilə mülki işlər üzrə hakimlərin yeni iş texnikasına giriş. – Bakı: Hüquq ədəbiyyatı, – 2012. – 496 s.

3. Türk Borçlar Kanunu (6098 saylı Qanun, 2012-ci il). Vekâletsiz işgörme: m. 526–531.

4. Eren F. Borçlar Hukuku Genel Hükümler. – Ankara: Yetkin Yayınları, – 2015.

5. Özkan F. Sebepsiz Zenginleşmeye Uygulanacak Hukuk. – İstanbul: Onikilevha Yayıncılık, – 2023.

6. Гражданский кодекс Российской Федерации (часть вторая). Статьи 1102–1109.

7. Иоффе О. С. Советское гражданское право: Курс лекций. Отдельные виды обязательств. – Ленинград: Изд-во ЛГУ, – 1961.

8. Соломина Н. Г. Обязательство из неосновательного обогащения: понятие, виды, механизм возмещения. – Москва: Юстицинформ, – 2009.

9. Bürgerliches Gesetzbuch (BGB) [Alman Mülki Qanunnaməsi]. §§ 677–687, 812–822.

10. von Caemmerer E. Bereicherung und unerlaubte Handlung // Festschrift für Ernst Rabel. Tübingen, 1954.

11. Wilburg W. Die Lehre von der ungerechtfertigten Bereicherung nach österreichischem und deutschem Recht. Graz, 1934.

12. Code civil [Fransa Mülki Məcəlləsi]. Gestion d'affaires və enrichissement injustifié (2016-cı il islahatından sonrakı redaksiya).

13. Zimmermann R. The Law of Obligations: Roman Foundations of the Civilian Tradition. Oxford: Oxford University Press, 1996.

14. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337, 339.6, 346.1 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair» 2 aprel 2021-ci il tarixli Qərarı.

15. 2(102)-5582/2022 nömrəli iş üzrə 12 dekabr 2022-ci il tarixli qərar.

16. 2(102)-789/2025 nömrəli iş üzrə 8 aprel 2025-ci il tarixli qərar.

17. 2(102)-2944/2025 nömrəli iş üzrə 22 oktyabr 2025-ci il tarixli qərar.

18. 2(102)-3269/2025 nömrəli iş üzrə 13 noyabr 2025-ci il tarixli qərar.

19. 2(1-8)-699/2026 nömrəli iş üzrə 23 aprel 2026-cı il tarixli qərar.

20. 2(102)-761/2022 nömrəli iş üzrə 31 yanvar 2022-ci il tarixli qərar.

21. 2(102)-1822/2025 nömrəli iş üzrə 31 iyul 2025-ci il tarixli qərar.

Алиев Алибаба Арзуман оглу,
магистрант II курса кафедры права
Национальной академии авиации

ВЗАИМОСВЯЗЬ И РАЗЛИЧИЕ ИНСТИТУТОВ НЕОСНОВАТЕЛЬНОГО ОБОГАЩЕНИЯ И ВЕДЕНИЯ ЧУЖИХ ДЕЛ БЕЗ ПОРУЧЕНИЯ: СРАВНИТЕЛЬНО-ПРАВОВОЙ АНАЛИЗ

РЕЗЮМЕ

В статье на основе сравнительно-правового метода (немецкое, французское, швейцарское, турецкое и российское право) исследуются взаимосвязь, границы и различия институтов неосновательного обогащения и ведения чужих дел без поручения по Гражданскому кодексу Азербайджанской Республики. Обосновывается, что подлинное ведение чужих дел не конкурирует с неосновательным обогащением, а вытесняет его, тогда как кондикция применяется лишь субсидиарно – как остаточное средство и через специальные нормы-мосты (ст. 1090.2, 1089.4, 680.2). Теоретические выводы впервые проверяются на материалах практики Гражданской коллегии Верховного Суда: суд применяет неосновательное обогащение как ultima ratio, предварительно проверяя договорные и близкие к договорным (в том числе ведение чужих дел) основания, а размер обогащения при улучшениях определяет «разностным» методом. Правильная квалификация прямо влияет на объём возмещения и срок исковой давности.

Aliyev Alibaba Arzuman,
2nd year master's student, Department of Law,
National Aviation Academy

THE INTERRELATION AND DISTINCTION OF THE INSTITUTES OF UNJUST ENRICHMENT AND NEGOTIORUM GESTIO: A COMPARATIVE-LEGAL ANALYSIS

SUMMARY

Using a comparative-legal method (German, French, Swiss, Turkish and Russian law), this article examines the interrelation, boundaries and differences between the institutes of unjust enrichment and negotiorum gestio under the Civil Code of the Republic of Azerbaijan. It argues that genuine negotiorum gestio does not compete with unjust enrichment but displaces it, while the condictio applies only subsidiarily – as a residual remedy and through special bridge provisions (Arts. 1090.2, 1089.4, 680.2). The theoretical conclusions are, for the first time, tested against the case-law of the Civil Chamber of the Supreme Court: the court applies unjust enrichment as ultima ratio, first checking contractual and contract-like bases (including negotiorum gestio), and measures enrichment in improvement cases by the «difference» method. Correct qualification directly determines the scope of recovery and the limitation period.

Redaksiyaya daxilolma tarixi: 15.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 20.06.2026
Çapa qəbul olunma tarixi: 22.02.2026